**Arifli A.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.35-41**
**UOT: 342.7**

# Avtomatlaşdırılmış qərarların hüquqi legitimliyi

**Xülasə:** Bu məqalədə süni intellektin hüquqi qərarvermə proseslərinə inteqrasiyası və onun yaratdığı funksional imkanlar və risklər araşdırılmışdır.

Müəllif süni intellekt alətlərinin hüquqi məlumatların təhlili, sənədlərin hazırlanması və qərarların proqnozlaşdırılması kimi funksiyaları sürətləndirərək hüquqi xidmətlərin səmərəliliyini və əlçatanlığını artırmaq potensialına malik olduğunu vurğulayır, eyni zamanda alqoritmik qərarvermədə şəffaflıq, məsuliyyət və qərəz kimi etik və sosial problemlər yarada biləcəyini qeyd edir.

Məqalədə həmçinin göstərilir ki, süni intellekt yalnız insan hüquqşünasların peşəkarlığını dəstəkləyə bilər, lakin onları tam əvəz edə bilməz. Hüquqi sistemlərdə süni intellektin ədalətli və etibarlı tətbiqi üçün əhatəli hüquqi, etik və texniki nəzarət mexanizmlərinin vacibliyi vurğulanır. Belə yanaşma həm texnoloji effektivliyi, həm də hüquqi legitimliyi təmin edərək qərarvermə proseslərinin şəffaflığını və etibarlılığını gücləndirir və hüquqi dövlətin təməl prinsiplərinin qorunmasına xidmət edir.

**Açar sözlər:** süni intellekt, avtomatlaşdırılmış qərarlar, legitimlik, insan hüquqları, risk, hüquqi çərçivə.

***Giriş***

Süni intellekt texnologiyalarının hüquqi qərarqəbuletmə proseslərinə inteqrasiyası müasir hüquq sisteminin institusional və funksional strukturunda dərin transformasiyalara səbəb olur. Bu sistemlər geniş həcmli məlumatların emalı, proqnozlaşdırıcı analitika və alqoritmik modellər vasitəsilə qərarvermə proseslərinin sürətləndirilməsinə və optimallaşdırılmasına xidmət edir. Xüsusilə hüquq sahəsində avtomatlaşdırılmış qərarlar sosial təminatın müəyyənləşdirilməsi, kredit riskinin qiymətləndirilməsi, işə qəbul və məhkəmə nəticələrinin proqnozlaşdırılması kimi sahələrdə tətbiq olunur.

Bununla yanaşı, avtomatlaşdırılmış qərarların tətbiqi onların hüquqi legitimliyi məsələsini gündəmə gətirir. Belə ki, süni intellekt texnologiyaları əsasında qəbul edilən qərarların insan hüquqlarının bərabərlik, şəffaflıq və hesabatlılıq prinsiplərinə uyğunluğu, habelə belə qərarların qəbulunda insan nəzarətinin təmin edilməsi müasir hüquq sistemləri üçün əsas çağırışlardan biridir.

Məqalədə avtomatlaşdırılmış qərarların hüquqi çərçivəsi və onların legitimliyinin əsas meyarları təhlil olunur. İlk olaraq avtomatlaşdırılmış qərarqəbuletmənin hüquqi əsasları və beynəlxalq normativ tənzimləmə mexanizmləri araşdırılır. Daha sonra alqoritmik qərarvermə sistemlərinin hüquqi legitimliyinin şəffaflıq, bərabərlik, ayrı-seçkiliyin qarşısının alınması və insan nəzarəti prinsipləri baxımından qiymətləndirilməsi aparılır.

♦ **Arifli Aygün Arif qızı** - Hüquqi tədqiqat şöbəsinin müdiri v.i.e. "Hüquq və İnsan Haqları İnstitutu" PHŞ (Azərbaycan). E-mail: aarifli@lhri.az

***1. Avtomatlaşdırılmış qərarların əhəmiyyəti və hüquqi çərçivəsi***

Rəqəmsal transformasiya dövründə dövlət orqanları və özəl sektor tərəfindən qərarların avtomatlaşdırılmış sistemlər vasitəsilə qəbul edilməsi sürətlə yayılmaqdadır.

**Avtomatlaşdırılmış qərarvermə qərarların** süni intellekt və alqoritmik sistemlər vasitəsilə insan müdaxiləsi olmadan qəbul edilməsi prosesidir [1, s. 656-660].

Süni intellektin hüquqi qərarqəbuletmədə təsiri üzrə aparılmış əvvəlki tədqiqiqatların təhlili göstərir ki, ilk öncə bu istiqamətdə elmi araşdırmalar əsasən texnoloji tətbiqlərin inkişafına və funksional imkanların genişləndirilməsinə yönəlmişdir. Xüsusilə hüquqi mətnlərin avtomatlaşdırılmış təhlili, təbii dil emalı metodlarının hüquqi materiallara tətbiqi və proqnozlaşdırıcı analitika məqsədilə alqoritmik modellərin işlənib hazırlanması sahəsində mühüm elmi nəticələr əldə edilmişdir [2, s. 87-90].

Süni intellektə əsaslanan alətlərdən biri olan "*Claude"* kimi böyük dil modelləri əsasında işləyən generativ sistemlər, mürəkkəb məlumat emalı və analitik hesablama funksiyalarını həyata keçirir və bu səbəbdən həm gündəlik fəaliyyətdə, həm də qərarqəbuletmə proseslərində inteqrasiya olunmağa başlanmışdır. Mənbələrə əsasən, "**Claude" müxtəlif** əməliyyatlar zamanı məlumatların analizi, istintaq materiallarının emalı və ehtimal olunan situasiya qiymətləndirilməsi kimi tapşırıqlarda istifadə olunur. Bununla belə, əməliyyatlarda modelin konkret nə cür funksiyaları yerinə yetirdiyi - məsələn, kəşfiyyat analizi, operativ spaçlama və ya digər spesifik dəstək - hələ də açıq şəkildə təsdiqlənməyib. Bu cür modellər müəyyən iş proseslərinin avtomatlaşdırılmasına kömək etsə də, onların təklif etdiyi nəticələrin hüquqi və etik nəticələri hələ də tənzimləyici müzakirələrin mərkəzindədir, çünki qərar prosesi sonunda həmişə insan nəzarəti saxlanılmalıdır [5].

Avtomatlaşdırılmış qərar qəbuletmə sistemlərinin geniş tətbiqi müasir hüquq sistemləri qarşısında yeni tənzimləmə çağırışları formalaşdırmışdır. Süni intellekt və alqoritmik modellərə əsaslanan qərarların hüquqi çərçivəsi, ilk növbədə, insan hüquqlarının qorunması, şəffaflıq, hesabatlılıq və ədalətlilik prinsipləri kontekstində qiymətləndirilməlidir. Bu baxımdan, avtomatlaşdırılmış qərarların hüquqi tənzimlənməsi fərdlərin hüquq və azadlıqlarının müdafiəsi üçün adekvat təminat mexanizmlərinin yaradılmasını tələb edir. Xüsusilə şəxsi məlumatların emalı, ayrı-seçkiliyin qarşısının alınması və effektiv hüquqi müdafiə vasitələrinə çıxış kimi məsələlər normativ çərçivənin əsas elementlərini təşkil edir.

Beynəlxalq hüquqi çərçivədə bu məsələ xüsusilə fərdi məlumatların qorunması və insan hüquqlarının müdafiəsi prizmasından tənzimlənir. Belə ki, Avropa Şurası Parlament Assambleyasının "Fərdi Məlumatların Qorunması Reqlamenti"nin (General Data Protection Regulation) avtomatlaşdırılmış fərdi qərarların qəbuluna dair xüsusi müddəalar müəyyən etmiş və şəxslərə yalnız avtomatlaşdırılmış emala əsaslanan qərarlara etiraz etmək hüququnu tanıyır [6]. Sözügedən sənəd avtomatlaşdırılmış fərdi qərarvermə ilə bağlı birbaşa və müstəqil "izah hüququ" təsbit etmir. Lakin maddədə müvafiq istisnalar (qərar müqavilənin bağlanması və ya icrası üçün zəruridirsə və ya məlumat subyektinin açıq razılığına əsaslanırsa) və təminatlar da nəzərdə tutulur (məsələn, insan müdaxiləsi tələb etmək, mövqeyini bildirmək və qərara etiraz etmək imkanı) [3, s. 1-3].

Avropa İttifaqında süni intellekt sistemlərinin hüquqi çərçivəsini müəyyən edən digər bir sənəd 2024-ci ildə Avropa Şurası tərəfindən təsdiq edilmiş "Süni İntellekt" haqqında Qanundur (Artificial Intelligence Act). Bu hüquqi aktda avtomatlaşdırılmış qərarvermə ilə bağlı hüquqi çərçivədə, xüsusilə "yüksək riskli" süni intellekt sistemləri üçün risklərin idarə olunması, keyfiyyətli və qərəzsiz təlim məlumatları, texniki sənədləşmə və qeydiyyat, şəffaflıq və istifadəçi

məlumatlandırılması, insan nəzarəti və uyğunluğun qiymətləndirilməsi prosedurları kimi hüquqi tələblər nəzərdə tutulmuşdur [6].

Beləliklə, avtomatlaşdırılmış qərarların hüquqi çərçivəsi fərdi məlumatların qorunması, şəffaflıq, insan nəzarəti və yüksək riskli süni intellekt sistemlərinin ədalətli və məsuliyyətli fəaliyyətinə yönəlmiş hüquqi təminatları ehtiva edir.

***2. Hüquqi legitimliyin əsas meyarları***

Bu gün artıq qloballaşan dünyada süni intellekt və alqoritmik idarəetmə mexanizmləri kreditlərin, lisenziyaların verilməsi, sosial təminatın müəyyənləşdirilməsi, işə qəbul və məhkəmə qərarlarını proqnozlaşdırmaq kimi işlərin icrasında mühüm rol oynayır. Bu kontekstdə avtomatlaşdırılmış qərarların hüquqi legitimliyi məsələsi xüsusi aktuallıq kəsb edir. Çünki belə qərarlar birbaşa olaraq şəxslərin hüquq və azadlıqlarına təsir göstərir və onların ədalətlilik, şəffaflıq və məsuliyyət prinsiplərinə uyğun olub-olmaması sual doğurur.

Müvafiq təcrübə göstərir ki, süni intellekt əsaslı sistemlərin geniş həcmli tarixi məhkəmə məlumatlarını emal edərək qərar nəticələrini yüksək dəqiqlik səviyyəsi ilə proqnozlaşdırmaq qabiliyyətinə malikdir. Bu nəticələr süni intellekt texnologiyalarının hüquqi qərarvermə proseslərində analitik dəstək aləti kimi potensial effektivliyini və tətbiq perspektivlərini elmi əsaslarla təsdiqləyir [4, s. 148].

Lakin ənənəvi insan qərarverməsi ilə müqayisədə daha obyektiv və səmərəli hesab edilsə də, süni intellekt və alqoritmik qərarvermə sistemləri məhkəmə və digər hüquqi qərarların qəbulunda metodoloji məhdudiyyətlər, məlumat qərəzliliyi və prosesual səhvlər səbəbindən yanlış nəticələrə gətirib çıxara bilər. Belə ki, ABŞ-da məhkəmələrdə istifadə olunan "COMPAS" risk qiymətləndirmə alqotirmi (süni intellektin bir forması olan **proqnozlaşdırıcı alqoritm** əsasında işləyir) təqsirləndirilən şəxsin yenidən cinayət törətmək riskini qiymətləndirmək üçün tətbiq edilirdi. 2016-cı ildə ProPublica tərəfindən aparılan araşdırma göstərdi ki, sistem afroamerikalı şəxslər üçün daha yüksək risk proqnozu verməyə meyilli olmuş və bu, alqoritmik ayrı-seçkilik iddialarına səbəb olmuşdur. Bu hal alqoritmlərin tarixi qərəzli məlumatlardan təsirlənə bilməsini nümayiş etdirdi [7].

Bundan başqa, son illərdə işə qəbul proseslərində süni intellekt texnologiyalarının istifadəsi sürətlə artmışdır. Bu sistemlər namizədlərin CV-lərini avtomatik qiymətləndirərək və böyük məlumat dəstlərini analiz edərək qərarqəbuletmə prosesini sürətləndirmək məqsədi daşıyır. İşə qəbul prosesində süni intellketin tətbiqi eyni zamanda **tarixi qərəzlərin alqoritmik nəticələrə təsir göstərməsi, şəffaflığın, bərabərlik və şəxsi toxunulmazlıq hüququnun pozulması kimi mühüm** risklər də daşıyır. Məsələn, 2014-2018-ci illərdə "**Amazon" şirkəti** avtomatik CV qiymətləndirmə alqoritmi istifadə edirdi. Bu alqoritm **keçmiş işə qəbul məlumatlarına** əsaslandığı üçün qadın namizədlərə qarşı mənfi meylli olmuşdur. Model tarixi məlumatlarda kişilərin üstünlük təşkil etməsinə görə qadınların CV-lərini daha aşağı qiymətləndirmiş, hətta bəzi hallarda tamamilə rədd etmişdir. Alqoritmin nəticələri ədalətli və ayrı-seçkilikdən azad işə qəbul prinsipləri ilə uzlaşmaması səbəbindən "Amazon" 2018-ci ildə sözügedən layihəni dayandırmışdır [8].

Bu hadisə hüquqi müstəvidə bərabərlik hüququnun pozulması kontekstində də təhlil edilmişdir. Belə ki, hüquq nəzəriyyəsində bərabərlik prinsipi yalnız formal bərabərliyi deyil, həm də maddi (substantiv) bərabərliyi ehtiva edir, yəni oxşar vəziyyətdə olan şəxslərə eyni münasibətin göstərilməsi ilə yanaşı, struktur xarakterli qeyri-bərabərliklərin aradan qaldırılmasını da tələb edir. Bu prinsip ayrı-seçkiliyin həm birbaşa, həm də dolayı formalarını qadağan edir [ 9].

Alqoritmik qərarvermə sistemləri zahirən neytral və obyektiv mexanizmlər kimi təqdim olunsa da, onların emal etdiyi məlumatlarda mövcud olan tarixi və sosial qərəzlər nəticələrə təsir göstərdikdə dolayı diskriminasiya riski yaranır. Xüsusilə gender və ya irq ayrı-seçkiliyiəks etdirən məlumat bazaları əsasında təlimləndirilən alqoritmik modellər müəyyən sosial qrupların sistemli şəkildə əlverişsizmövqedə qalmasına səbəb ola bilər.

Aparılan təhlillər göstərir ki, avtomatlaşdırılmış qərarqəbuletmə sistemlərinin hüquqi legitimliyi yalnız texniki düzgünlük və səmərəlilikdən deyil, həm də hüquqi təminatlara uyğunluqdan asılıdır. Hüquqi dövlət prinsipi tələb edir ki, belə qərarlar şəffaf, hesabatlı və ədalətli olsun, ayrı-seçkilik riskini minimuma endirsin.

***Nəticə***

Süni intellekt sistemləri qərarqəbuletmə sahəsində böyük imkanlar yaratmaqla, əməliyyatları sürətləndirə, xərcləri azalda və hüquqi nəticələrin dəqiqliyini yaxşılaşdıra bilir. Bununla belə, süni intellekt sistemlərinin qərar qəbuletmədə tətbiqi etik və sosial problemlər də doğurur, o cümlədən qərəzlilik, şəffaflıq çatışmazlığı, məsuliyyət məsələləri və insan qərarverməsinin rolunun zəifləməsi kimi mühüm risklər daşıyır.

Nəticədə, süni intellektin hüquqi proseslərdə tətbiqi insan peşəkarlığını tam əvəz edə bilməz, yalnız onu dəstəkləyə bilər və bu texnologiyaların ədalətli və etibarlı şəkildə işləməsi üçün əhatəli hüquqi-etik nəzarət mexanizmləri tələb olunur.

Hüquqi qərarvermədə süni intellekt əsaslı sistemlərin tətbiqi zamanı ədalət, şəffaflıq və hesabatlılıq prinsiplərinin qorunması vacibdir ki, hüquqi dövlətin əsas prinsipləri pozulmasın. Eyni zamanda, tarixi və sosial qərəzlərin təsiri minimuma endirilməli və qərar nəticələri müvafiq hüquqi standartlar çərçivəsində davamlı olaraq qiymətləndirilməlidir. Bu yanaşma yalnız texnoloji effektivliyi təmin etməklə qalmır, həm də hüquqi legitimliyi gücləndirərək qərarvermə proseslərinin etibarlılığını və şəffaflığını artırır. Beləliklə, süni intellektin hüquqi sistemlərdə məsuliyyətli və ədalətli istifadəsi hüquqi, etik və texniki meyarların kompleks şəkildə nəzərə alınmasını tələb edir.

## Biblioqrafiya

1. Michèle Finck “Automated Decision-Making and Administrative Law”. Oxford Academic, 15 December 2020, pp.656-660

2. Surden H. Machine learning and law.Washington LawReview. 2014. № 89(1), pp. 87-90.

3. Wachter S., Mittelstadt, B., & Floridi, L. “Why a Right to Explanation of Automated Decision-Making Does Not Exist in the General Data Protection Regulation.” *International Data Privacy Law*2017, pp.1-3

4. Mirdedi, Hasudungan Sinaga, Evy Indriasari,Sumiyati, Rizki Nurdiansyah, The Role of Artificial Intelligence in Legal Decision-Making, The Journal of Academic Science, Vol 1, № 4, 2024, pp. 417-424. [Elektron resurs]. URL: http://thejoas.com/index.php/thejoas/article/ view/60/73

5. US military used Anthropic’s AI model Claude in Venezuela raid, report says. Wall Street Journal says Claude used in operation via Anthropic’s partnership with Palantir Technologies [Elektron resurs]. URL: https://www.theguardian.com/technology/2026/feb/14/us-military-anthropic-ai-model-claude-venezuela-raid?utm_source

6. General Data Protection Regulation. [Elektron resurs]. URL: https://eurlex.europa.eu/ eli/reg/2016/679/oj/eng

7. Council of Europe "Artificial Intelligence Act" chapter 3-4. [Elektron resurs]. URL: https://artificialintelligenceact.com/

8. Dastin, J. (2018). Amazon scraps secret AI recruiting tool that showed bias against women. Reuters. [Elektron resurs]. URL: https://www.reuters.com/article/us-amazon-com-jobs-automation-insight-idUSKCN1MK08G/

9. Discrimination in the Age of Algorithms. [Elektron resurs]. URL: https://arxiv.org/abs/1902.03731?utm_source

***Məqalə daxil olmuşdur:*** *05 mart 2026-cı il*
***Çapa qəbul edilmişdir:*** *16 mart 2026-ci il*

**Arifli A.A.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.35-41**
**UDC: 342.7**

## Legal Legitimacy of Automated Decisions

**Abstract:** This article examines the integration of artificial intelligence into legal decision-making processes, as well as the functional opportunities and risks it entails.

The author emphasizes that AI tools have the potential to accelerate the analysis of legal data, the preparation of documents, and the prediction of decisions, thereby enhancing the efficiency and accessibility of legal services, while also noting that algorithmic decision-making may give rise to ethical and social issues such as lack of transparency, accountability, and bias. T

The article further indicates that AI can support the professionalism of human lawyers but cannot fully replace them. The necessity of comprehensive legal, ethical, and technical oversight mechanisms for the fair and reliable application of AI in the legal system is highlighted; such an approach ensures both technological efficiency and legal legitimacy, strengthening the transparency and reliability of decision-making processes and contributing to the protection of the fundamental principles of the rule of law.

**Keywords:** Artificial Intelligence, automated decisions, legitimacy, human rights, risk, legal framework.

## References

1. Michèle Finck "Automated Decision-Making and Administrative Law". Oxford Academic, 15 December 2020, pp.656-660

2. Surden H. (2014). Machine learning and law.Washington LawReview, № 89(1), pp. 87-90.

3. Wachter, S., Mittelstadt, B., & Floridi, L. "Why a Right to Explanation of Automated Decision-Making Does Not Exist in the General Data Protection Regulation." International Data Privacy Law 2017, pp.1-3

♦ **Arifli Aygun Arif qizi -** Acting Head of the Legal Research Department "Institute for Law and Human Rights" PLE (Azerbaijan). E-mail: aarifli@lhri.az

4. Mirdedi, Hasudungan Sinaga, Evy Indriasari,Sumiyati, Rizki Nurdiansyah, The Role of Artificial Intelligence in Legal Decision-Making, The Journal of Academic Science, Vol 1, № 4, 2024, pp. 417-424. Available at: http://thejoas.com/index.php/thejoas/article/ view/60/73

5. US military used Anthropic's AI model Claude in Venezuela raid, report says. Wall Street Journal says Claude used in operation via Anthropic's partnership with Palantir Technologies. Available at: https://www.theguardian.com/technology/2026/feb/14/us-military-anthropic-ai-model-claude-venezuela-raid?utm_source

6. General Data Protection Regulation. Available at: https://eurlex.europa.eu/ eli/reg/2016/679/oj/eng

7. Council of Europe "Artificial Intelligence Act" chapter 3-4. Available at: https://artificialintelligenceact.com/

8. Dastin, J. (2018). Amazon scraps secret AI recruiting tool that showed bias against women. Reuters. Available at: https://www.reuters.com/article/us-amazon-com-jobs-automation-insight-idUSKCN1MK08G/

9. Discrimination in the Age of Algorithms. Available at: https://arxiv.org/abs/ 1902.03731?utm_source

***The article was submitted:*** *2026 March 05*
***Accepted for publication:*** *2026 March 16*

**Арифли А.А.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.35-41**
**УДК: 342.7**

## Юридическая легитимность автоматизированных решений

Аннотация: Исследуется интеграция искусственного интеллекта в процессы принятия юридических решений, а также функциональные возможности и риски, которые она порождает.

Автор подчеркивает, что инструменты искусственного интеллекта обладают потенциалом ускорять анализ юридических данных, подготовку документов и прогнозирование решений, повышая эффективность и доступность юридических услуг, одновременно отмечая, что алгоритмическое принятие решений может порождать этические и социальные проблемы, такие как непрозрачность, ответственность и предвзятость.

Указывается, что искусственный интеллект может лишь поддерживать профессионализм юристов, но не заменять их полностью. Подчеркивается необходимость комплексных юридических, этических и технических механизмов контроля для справедливого и надежного применения искусственного интеллекта в правовой системе; такой подход обеспечивает как технологическую эффективность, так и юридическую легитимность, укрепляя прозрач-

♦ **Арифли Айгюн Арифовна** - и.о.заведующей отделом юридических исследований «Институт права и прав человека» ПЮЛ (Азербайджан). E-mail: aarifli@lhri.az

ность и надежность процессов принятия решений и способствуя сохранению основных принципов правового государства.

**Ключевые слова:** искусственный интеллект, автоматизированные решения, легитимность, права человека, риск, правовая рамка.

***Дата поступления:*** *05 марта 2026 г.*
***Дата принятия в печать:*** *16 марта 2026 г.*